# Vətən sevgisi, qələbəyə inam Azərbaycan Ordusunun gücünü daha da artırır



**_Azərbaycan Ordusunun ümumi döyüş hazırlığı, xüsusilə onun cəbhədə yerləşən hərbi hissələrinin döyüşkənliyi yüksək səviyyədədir. Ona görə də ölkəmizdə bütün diqqət daim Azərbaycanın təhlükəsizliyinin, onun işğalda qalan böyük bir hissəsinin azadlığının təminatçısı olan müdafiəçilərimizə, cəbhə xəttinə, səngərlərə yönəlib._**

Bu gün Azərbaycanın ərazisinin 20 faizinin işğalı, sərhədlərimizin pozularaq səngərlərlə əvəz olunması hamımızı, xüsusilə ön xətdə düşmənlə üz-üzə dayanan zabit və əsgərlərimizi daha çox narahat edir. Qarşı tərəfdə, işğal olunan tarixi ərazilərimizdə işğalçı Ermənistanın “meydan suladığını” görəndə, müdafiə mövqelərində düşmənin törətdiyi diversiyalar zamanı öz zabit, əsgər yoldaşlarını, Vətənimizin layiqli müdafiəçilərini itirəndə isə bu narahatlıq daha da artır. İşğalçılıq niyyətlərindən əl çəkməyən düşmənlə daha yaxın təmasda olan zabit və əsgərlərimiz cəbhə xəttində yalanla nəfəs alan, ikiüzlü, dayandıqları ərazilərin özgə torpaqları olduğunu belə unudaraq havadarlarının hesabına coşan, artıq pilotsuz uçuş aparatları ilə birgə, başları da “havalanan” ermənilərin özbaşınalıqlarını, ərazilərimizi yağmalamaqda davam etdiyini görür və bununla heç cür barışa bilmirik.

Səbri tükənən, dişini-dişinə sıxıb dayanan döyüşçülərimiz güllələri azğın düşmənin başına sıxacaqları, bayrağımızı azad olunan torpaqlarımızda dalğalandıracaqları günü səbirsizliklə gözləyirlər. Tez-tez atəşkəsi pozan ermənilərsə hər dəfə etdiklərinə peşman olsalar da köhnə vərdişlərindən əl çəkə bilmirlər. Bir də, görünür, özgə torpağında müvəqqəti dayandığını artıq tam anlayan düşmən Azərbaycan Ordusunun gücünü, döyüşçülərimizin qələbə, döyüş əzmini görüb yaman qorxuya düşüb və bu təlaşı canından qovmaq istəyir. Amma gec-tez özü qovulacaq tarixi torpaqlarımızdan... Bu inam, bu ümid Vətənə sevgisi, qələbəyə inamı ilə silahlanan Azərbaycan əsgərinin dözümündə, cəsarətində yaşayır və artmaqda davam edir bu gün...

Son vaxtlar işğalçı Ermənistan ölkəmizin müdafiə qüdrətinin artmasından, Ali Baş Komandanımızın sərt mesajlarından bərk narahatdır. İşğalçı tərəfdən ölkəmizin ünvanına hərbi müdaxilə ilə bağlı, guya Azərbaycanın qalan hissəsini də ələ keçirmək haqda sərsəm bəyanatlar, sayıqlamalar səslənir. Bu da elə çox vaxt işğalçı Ermənistanın “dəyirmanına su tökən”, hərbi gücümüzdən bərk narahat olan digər qüvvələrin diktəsi altında baş verir. Amma hamımız Azərbaycan adlı evimizi qoruyanların müdafiə və döyüş qabiliyyətinin yüksəlməsindən böyük qürur duyuruq. Onlarla dost, qardaş ölkə də bizim haqq mübarizəmizə dəstək verirlər.

Ölkəmizin sakitliyi, əmin-amanlığı bütün dünyada qəbul olunan qaydalara görə silahlı qüvvələrimizin gücü, müdafiə imkanları, döyüş hazırlığı ilə təmin olunur. Amma təhlükə anında, müharibə şəraitində ümumi səfərbərliklə ölkəmizin ehtiyat qüvvələri də onun müdafiəsinə cəlb oluna bilər. Yəni bu o deməkdir ki, müdafiə qüdrətimiz ehtiyat qüvvələrimizin döyüş hazırlığından çox asılıdır. Bu gün ehtiyatda olan qüvvələrimizin hələlik Ali Baş Komandanın səfərbərlik əmri olmadan belə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyət planı ilə toplanışlara cəlb olunması, silaha sarılıb işğalçı Ermənistana qarşı mübarizəyə canla-başla hazır olduqlarını nümayiş etdirməsi də, təlimə cəlb olunan ehtiyat qüvvələrin gözümüz önündə olan döyüş hazırlığı da azğın düşmənə görk olmalıdır.

Biz xaricdən terrorçuları “səfərbər” edən düşmənin bütün məkrli niyyətlərindən xəbərdarıq. Bunu respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yaxın günlərdə Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına verdiyi müsahibəsində Ermənistanın təcavüzkar siyasəti barədə bəyan etdiyi faktlar tam təsdiqlədi: “Ermənistan yeni müharibəyə hazırlaşır. Təmas xəttinə yaxın onların qüvvələrinin konsentrasiyası baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik”.

Məkrli düşmənin hiylə və planlarından xəbərdar olmaq, xüsusi kəşfiyyat fəaliyyəti aparmaq üçün ordumuzun bütün imkanları var. Bu yönümdə ordumuzun cəbhə xəttindəki xüsusi təyinatlı qrupları elə xüsusi olaraq fəaliyyət göstərirlər. Bu yerdə ömrünün böyük bir hissəsini Qarabağ müharibəsində, cəbhədə keçirən hərbi jurnalist, ordumuzun ehtiyatda olan mayoru kimi deyə bilərəm ki, artıq kəşfiyyatçılarımızın arsenalında düşmənin işğal etdiyi ərazilərimizdəki hərəkətlərini izləmək, qərargahlarında apardığı danışıqları belə dinləmək imkanı verən cihazlar, qurğular və pilotsuz uçuş kəşfiyyat aparatları var. Madam ki, söz silah-sursat, döyüş imkanlarından düşdü, onu da qeyd edim ki, keçmiş sovet dövründən qalan artilleriya silahlarından istifadə edərək son vaxtlar təxribat törədən azğın düşmənə elə öz müdafiə sənayemizin istehsalı olan, təkmilləşdirilmiş, daha dəqiq və uzaqvuran mərmilərlə sarsıdıcı artilleriya zərbələri endirməyə hazır dayanan qüvvələrimiz var.

Artilleriya hazırlığı ilə başlayacaq qələbə soraqlı döyüşlərə hər an hazır olan top heyətləri hələlik torpaqlarımızı işğal edərək mövqelənən Ermənistan silahlı qüvvələrinin hərbi baza və atəş nöqtələrini daim hədəfdə saxlayırlar. Artilleriyanın allahı, Rusiya imperiyasını neçə döyüşdən üzüağ çıxardan artilleriya generalı Əliağa Şıxlinski kimi sərkərdənin davamçıları olan təcrübəli topçularımız düşmənin bütün mövqelərini, qüvvə və vasitələrini hədəfdə saxlamaqla sabahın döyüşlərində irəliləyən qüvvələri himayət etmək yolunda öz döyüş mövqelərini və xüsusi yerlərini qoruyub saxlayırlar. Onların hazırlığı, ayıq-sayıqlığı dayanmadan keçirilən təlim məşqlərində daha da yüksəldilir, istifadə edəcəkləri artilleriya qurğuları isə silah ustalarımız tərəfindən gündən-günə təkmilləşdirilir...

Azərbaycanın gücü qarşısında qorxuya düşən işğalçı düşmənin hədə-qorxu gəlməsi, uğursuzluğa düçar olan təxribat əməliyyatlarının aqibəti onun ağlını-başını itirərək kənardan verilən göstərişlə hərəkət etdiyindən xəbər verir. İşğalçı Ermənistan hakimiyyətinin son davranışlarından onun iç üzü, idarəolunmaz olduğu tam aydın görünür. Nikol Paşinyanın da, onun zövcəsi Anna Hakopyanın da son – siyasət meydanından uzaq, sirk arenasına yarayan gülünc hərəkətləri bunun bariz nümunəsidir...

Amma işğalçı qüvvələr unutmamalıdırlar ki, biz silahı yerə qoymamışıq və Ermənistanın həyasız davranışları nifrətimizi, ərazilərimizi daşnak tör-töküntülərindən təmizləmək uğrunda müharibə, mübarizə əzmimizi daha da artırır. Azərbaycan Ordusu hələlik işğalçı düşmənin növbəti təxribatlarını, diversiya xarakterli hücumlarını gözləyə-gözləyə ərazi bütövlüyümüzün pozulduğu səngərlərdə döyüş növbəsində dayanıb...

Döyüş növbəsindəyik, döyüşün növbəsi çatana kimi. Bu gün artıq “DÖYÜŞ VƏ QƏLƏBƏ!” – deyir bütün Azərbaycan və onun ordusu! Vətənə sevgisi, qələbəyə inamı ilə silahlananlar neçə ildir ki, göz önündə dədə-baba torpaqlarımızın yağmalanmasından bezib, usanıblar artıq. Bütün Azərbaycan və onun ordusu tarixi ərazilərimizi işğaldan azad etmək uğrunda döyüşlərin sorağındadır. Heç bir üçüncü qüvvə, ciddi hesab olunan manea, dərin xəndəklər, müdafiə sədləri, keçilməz dağlar belə ona bu yolda mane ola bilməyəcək.

***Rahib QƏRİB,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 25 sentyabr.- S.9.